# Müqəddəs andın 19 ili – Prezidentlikdən Müzəffərliyə doğru



**Dünyanın ən zəngin iş adamlarından biri Bill Qeyts deyir ki, gələcək əsr güclü liderlərin yox, gücləndirən liderlərin əsri olacaq. Həqiqətən, dünyanın insanların rifah halını yaxşılaşdıran, çətinlikləri yüngülləşdirən, daim tərəqqiyə və hər işdə harmoniyaya səbəb olacaq addımlar atmağı bacaran liderlərə ehtiyacı var. İlham Əliyev məhz bu xüsusiyyətlərin daşıyıcısı olan liderdir. O, həmişə xalqının yanında olan, hər bir azərbaycanlını duyan, vətəndaşın rifahı naminə əzmlə çalışan güclü dövlət xadimidir. Vətənə xidmət onun üçün müqəddəs amaldır. 2003-cü ilin 31 oktyabr tarixi isə İlham Əliyevin müqəddəs amallara doğru getmək üçün Vətən andını içdiyi tarixdir. Həmin tarixin 19 ilini yada salmaq, keçdiyimiz yola dərin ehtiram, qədirbilənlik nümunəsidir.**

Cənab İlham Əliyevin uğurunun əsasında Azərbaycanın son 19 ildə dinamik inkişaf dövrünü yaşaması, qarşıda duran vəzifələri mükəmməl həyata keçirməsi kimi ciddi amillər dayanır. Prezident Azərbaycan xalqının əmin-amanlığının, firavanlığının təminatı ilə bağlı bütün vədlərini reallığa çevirib. Onun rəhbərliyi ilə ölkəmiz dünyanın qabaqcıl dövlətlərinin onilliklər ərzində keçdiyi inkişaf mərhələsini sürətlə qət edib, müasirləşmə yolunda inamla addımlamaqla, yeni üfüqlər və perspektivlər açıb. Xalqın etimad və rəğbətindən nəşət alan parlaq perspektivlər.

Cənab İlham Əliyev Azərbaycanın Cənubi Qafqazın lider dövləti mövqeyini möhkəmləndirərək bu statusa dönməzlik qazandırıb. Beynəlxalq aləmdə qarşılıqlı faydalı və bərabərhüquqlu əməkdaşlığa, geostrateji maraqların həyata keçirilməsinə, terrorizmə qarşı mübarizəyə yönəlmiş uzaqgörən xarici siyasət həyata keçirib. Dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə hörmətlə yanaşmaq, daxili işlərinə qarışmamaq, xarici siyasət strategiyasında əsas prinsiplər kimi ölkəmizin nüfuzunun daha da güclənməsinə şərait yaradıb. Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilmiş genişmiqyaslı islahatlar Azərbaycan dövlətinin bütün sahələrini – siyasəti, iqtisadiyyatı, sosial sferanı, elmi və incəsənəti əhatə edib. Reallığı düzgün qiymətləndirmək bacarığı, işgüzarlığı, səmimiliyi, millətinə, Vətəninə sevgisi, qətiyyətliliyi, məqsədə doğru inamla irəliləməsi, son 19 ilin hər birində Prezident İlham Əliyevə rəğbət hissini daha da artırıb.

Azərbaycanın dünəninə, bu gününə və sabahına sonsuz, sarsılmaz sədaqət – bunlar İlham Əliyev şəxsiyyətini hər kəsə sevdirən cəhətlərdir. O, xalqını sevən liderdir. Azərbaycanda yüksək vətəndaş həmrəyliyi formalaşdırmış Prezident vurğulayır ki, dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Buna görə həyata keçirdiyi siyasi kurs, apardığı islahatlar, yeniliklər əhalinin sosial rifahının yüksəldilməsinə, həyat şəraitinin daha da yaxşılaşdırılmasına hesablanıb.

Cənab İlham Əliyev lider-novatordur. Ölkəmizi böyük miqyaslı infrastruktur layihələrə cəlb etməklə, səmərəni davamlı dividentə çevirmək bacarığını göstərib. İqtisadiyyatda, sosial sahədə, təhsildə, elmdə və digər istiqamətlərdə innovativ yanaşmanın tətbiqini xüsusi diqqət mərkəzində saxlayıb. Həyata keçirdiyi proqramlar isə milyonlarla insan üçün iş yeri təminatıdır.

*(ardı 3-cü səhifədə)*

# Müqəddəs andın 19 ili – Prezidentlikdən Müzəfərliyə doğru




*(əvvəli 1-ci səhifədə)*

Azərbaycan vətəninin hər güşəsini sevən İlham Əliyevin rəhbərliyi ilə xalqımızın soykökünə əsaslanmış milli adət-ənənələrimizi qoruyub yaşatma, mədəni irsimizin təbliğat örnəyidir. Onun həssas yanaşmasının nəticəsidir ki, ölkəmiz mədəniyyətlərarası və dinlərarası dialoq platformasına, bəşəri miqyaslı tədbirlərin keçirildiyi məkana çevrilib.

Başlıca məqamlardan biri də budur ki, ölkəmiz İlham Əliyevin rəhbərliyi ilə inkişaf davamlılığını inamla qorumaqla bərabər, beynəlxalq arenada da hərtərəfli dinamizm, çeviklik nümayiş etdirir. O, güclü diplomat, qlobal tendensiyaları məharətlə müəyyənləşdirməyi bacaran strateqdir. Bu, çətin dilemmalardakı doğru seçimi şərtləndirən xüsusiyyətdir. Bu, Qarabağ kimi "qordi düyünü"nü açmaq bacarığıdır. Məsələ heç də hərbi gücdə deyil. Məsələ o gücün tətbiqi üçün doğru zamanı və şəraiti lazımınca dəyərləndirməkdədir. Güc həm də məqsədə və hədəfə doğru səbr və təmkinlə addımlamaqdır. İlham Əliyev ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi Qarabağ hədəfinə doğru həm addımladı, həm də bu yola ideoloji məzmun qazandırdı.

Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsində bütün dünyaya əyani şəkildə nümayiş etdirdi ki, fədakar, sülhsevər Azərbaycan xalqı haqq işi uğrunda mübarizə aparmağa, qalib gəlməyə qadirdir. Dövlət başçımızın qətiyyəti və cəsarəti, yüksək intellekti, beynəlxalq hüququn bütün təfərrüatlarına mahir biliciliyi İkinci Qarabağ savaşında erməni işğalçıları üzərində qələbə qazanmağımızda misilsiz rol oynadı. Onun hücum diplomatiyası xaricdəki erməni lobbisini sarsıtdı, işğalçı Ermənistanın "keçilməz" və "məğlubedilməz" adlandırdığı müdafiə istehkamları haqqındakı mifi dağıtdı. Vətən müharibəsinin 44 günü ərzində dövlət başçımız bütün azərbaycanlılar üçün əziz və yaxın insana, ailə üzvünə çevrildi, azərbaycanlılara 30 ilə yaxındır həsrətlə gözlədikləri qalibiyyət hissini qaytardı.

Alman filosofu Fridrix Nitşe fatehlərin şansa inanmadığını söyləyir. Prezident İlham Əliyev həm də şansı özü yaradan liderdir. Elə bir şansı ki, onun verdiyi imkanlar Azərbaycan xalqının parlaq gələcəyi üçün inamdır, sarsılmaz təminatdır. Oktyabrın 31-i Azərbaycanın məhz bu təminata doğru çıxdığı günün – Prezident İlham Əliyevin Vətənə xidmət andının təntənəsidir. Xalqımız onun bu anda daim sadiq qalacağına əmindir.

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***